

Vaqif İSAQOĞLU

## DEYİL

Bütün analardan göyçəkdi anam,
Dünyada ən zərif çiçəkdi anam.
Allahın yanında mələkdi anam,
Mələklər heç zaman öləsi deyil.

Mənim ürəyimə köçüb yaşayır,
Dirilik suyunu içib yaşayır.
Haqqın dərgahına köçüb yaşayır,
Haqqın dərgahından enəsi deyil.

Könül sarayımda kədər ulayır,
Ana, dərd əlindən gəl məni ayır.
Bu haqsız dünyanı yaxşı tanıyır,
Bu haqsız dünyaya gələsi deyil.

Ümid yollarını bağlama, Vaqif!
Dəniz tək kükrəyib çağlama Vaqif!
"Ana", "Ana", - deyib ağlama Vaqif!
Gəlib göz yaşını siləsi deyil.

## SƏNİNDİ

*Anama*

Yatdığın məzar da cənnət qoxuyur,
Mələklər adına çələng toxuyur.
Qonub başdaşına quşlar oxuyur,
Dünyanın ən gözəl qəbri sənindi.

Nə tez köçüb getdin, qurban yaşına,
Mən də gəlib çatdım sənin yaşına.
Tanrı sığal çəkib sinə daşına,
Dünyanın ən gözəl qəbri sənindi.

Sənsiz yaşamağım öz günahımdı,
Daşı da əridən mənim ahımdı.
Müqəddəs məzarın səcdəgahımdı,
Dünyanın ən gözəl qəbri sənindi.

Mənim həyatımın mənası idin,
Qəmlənsəm od tutub yanası idin.
Dünyanın ən gözəl anası idin,
Dünyanın ən gözəl qəbri sənindi.

## ALLAHIN VAQİFƏ YAZIĞI GƏLMİR

Hələ ki, qələmlə gor qazıram mən,
Hələ ki, öz gorum qazılmayıbdı.
Tanrının alnıma yazdığı yazı,
Heç kimin alnına yazılmayıbdı.

Mənim ürəyimi gün bişirəmməz,
Mənim ürəyimi bişirən dərddi.
Başımı götürüb qaça bilmirəm,
Axı dərddən qaçan özü namərddi.

Daha dərdlərimlə dost olmuşam mən,
Bu da bir taledi, neyləmək olar?
Nə qədər Allaha şikayət edib,
Nə qədər dərdini söyləmək olar?

Dünyanın hər dərdi mənə tanışdı,
Dünyanın dərdləri sinəmi dəlir.
Allahın Vaqifə yazığı gəlmir,
Vaqifin Allaha yazığı gəlir.

## ÇİNAR

Bu Çinar ağacının-
Min ildir yaşı, bilin.
Şərəfli tarixidir,
Bizim obanın, elin.

Buludlardan nəm çəkir,
Bir baxın qol-budağı,
Müsəlləh əsgər kimi
Qoruyur bu torpağı.

Bir elin sevincidi,
Bir elin dayağıdı.
Bu Çinar bizim kəndin-
Müqəddəs bayrağıdı.

## QURBAN OLUM

Vətən sənin torpağına,
Bir quruca yarpağına,
Haqdan yanan ocağına,
Hər daşına qurban olum.

Təmiz adın-dövlət, varın,
Pozularmı düz ilqarın?
"Oğul" deyən anaların,
Göz yaşına qurban olum.

Vəfalı ol öz yarına,
Qoyma cana dərd sarına.
Şəhidlərin məzarına,
Başdaşına qurban olum.

## ÖZÜM ÇƏKİM

Ömrün günortası olmayıb hələ,
Ürəkdə arzular solmayıb hələ.
Bü həyat bir daha düşərmi ələ?
Qoy sənin nazını mən özüm çəkim.

Göz üstə saxlaram inan yar səni,
Döyməz yağış səni, döyməz qar səni.
Qorxuram başqası aldadar səni,
Qoy sənin nazını mən özüm çəkim.

Ürəkdə həsrətin közü - gözəldi,
Yaxıb-yandırsa da düzü- gözəldi.
Bu yaşda naz çəkmək özü gözəldi,
Qoy sənin nazını mən özüm çəkim.

Sənsiz can sevinib üzüm gülərmi?
Vaqifə xoşbəxtlik yaxın gələrmi?
Bir kimsə nazını çəkə bilərmi?
Qoy sənin nazını mən özüm çəkim.

Ədalət.- 2023.- 29 sentyabr.- S.7.